

Qondarma “1915-ci il erməni soyqırımı” qurbanlarını anmaq üçün sabah Vatikanda keçiriləcək ayin üçün Roma Papası Fransiskin iştirakçılara payladığı dua kitabçasında "soyqırım" kəlməsi yazılıb.

AZNEWS.AZ xəbər verir ki, yerli vaxtla saat 09.00-da başlaması nəzərdə tutulan sözügedən tədbirdə dünya ermənilərinin ruhani lideri və erməni apostolik kilsəsinin katolikosu Karekin II və Kilikiya katolikosu Aram I və Ermənistan prezidenti Serj Sarkisyanın da iştirakı gözlənilir.

Roma Papası mərasimdə 10-cu əsrdə yaşayan erməni şair, rahib, mistik və teoloq Surp Krikor Naregatsiyə "Kilsə doktoru” adını da rəsmi olaraq verəcək.

Qeyd edək ki, bu ad xristianlığa xidmət edən insanlara verilir və bu günə qədər cəmi 35 nəfər buna layiq görülüb.